# Əmək münasibətləri üzrə rəqəmsal həllərin tətbiqi genişlənir



**"Əmək və Məşğulluq" altsisteminin funksional imkanları mütəmadi artırılır və bu e-sistemə bir sıra yeni funksionallıqlar da əlavə olunacaq.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin fəaliyyət sahələrində görülən işlərə və aparılan islahatlara dair keçirilən infosessiyada bildirilib. Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev son illər əmək münasibətlərinin rəqəmsallaşdırılması, əmək bazarına innovativ nəzarət mexanizmlərinin tətbiqi istiqamətində atılan addımları qeyd edib. ƏMAS-da əmək müqavilələrinin e-qaydada bağlanılması və dəyişiklik edilməsi, əmrlərin elektronlaşdırılması, işçilər və işəgötürənlər arasında rəsmi yazışmalar, tibbi arayışlar və sair ilə bağlı yeni imkanlar da yaradıldığı diqqətə çatdırılıb.

Əmək münasibətləri üzrə e-nəzarət mexanizmlərinin genişləndirilməsi, kadr kargüzarlığı ilə bağlı sənədləşdirmələrin tam elektronlaşdırılması işlərinin davam etdirildiyi diqqətə çatdırılıb. ƏMAS-da əməyin mühafizəsi ilə bağlı bölmənin də yaradılacağı, bu e-sistem üzərindən işəgötürənlərə yeni xidmətlərin təqdim edilməsinin də nəzərdə tutulduğu qeyd edilib. Elektron əmək müqaviləsi sisteminə keçid prosesinin uğurla davam etdiyi vurğulanıb. Əmək qanunvericiliyinə əməl olunmasına proaktiv qaydada e-nəzarət tədbirlərindən də bəhs olunub, e-audit modulu üzrə işlərin artıq yekunlaşdırıldığı diqqətə çatdırılıb.

İş yerlərində əmək qanunvericiliyinin düzgün şəkildə tətbiqində işəgötürənlərə dəstək məqsədi daşıyan "DOST Müfəttiş" layihəsi, habelə xidmətin tabeliyindəki Əməyin Mühafizəsi Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı görülən işlər qeyd edilib. İşğaldan azad edilmiş ərazilərimizdə də işəgötürənlər və işçilər üçün əmək qanunvericiliyi ilə bağlı aparılan ardıcıl maarifləndirmə tədbirlərindən bəhs olunub. Dövlət Əmək Müfəttişliyi Xidmətinin sədrliyi ilə fəaliyyət göstərən "Əmək sahəsində" standartlaşdırma üzrə Texniki Komitə tərəfindən əmək sahəsi üzrə artıq 57 yeni milli standartın hazırlandığı və Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən dövlət standartı kimi qəbul edildiyi bildirilib.

İnfosessiyada qeyd edilən sahələrdə görülən işlər və hədəflər müzakirə edilib.

Azərbaycan.- 2025.-7 mart (№51).- S.5.